Adımız məfkurəmizdir

6-12 oktyabr 2020-ci il

Türküstan

www.turkustan.info

# Bu kino ki var...

## Tarkovskinin kino haqqında düşüncələri

Amaliya Ömər

**əvvəli ötən sayımızda**

***Bu şeirlər illüziyadan ibarət deyildi. Sadəcə filmin dəyişik epizodlarının anlatdığı dönəmə aid bir zamanda yazılmışdı. Misal üçün sevgiyə aid şeir demək olar ki yazıldığı tarixlə eyni zamanda, yəni 1937-ci ildə filmin qadın qəhrəmanı tərəfindən xatırlanır. Yəni demək istədiyim odur ki, bu şeirə illüziya deməyi doğru saymıram. Çünki bu şeirlər qadın qəhrəmandan və o məkanda yaşayan insanlarla ayrı deyil. Digər tərəfdən də bu şeirlərin filmdə rol alan anamla yaxından bağlılığı var."***

***Tarkovski kinoda 'dil'in də çox önəmli rol oynadığını da xüsusilə vurğulayır. Və o kinoda 'bəsit dil" deyil 'səmimi" dildən istifadə edilməsini məsləhət görürdü.***

Tələbələrinə hər zaman söyləyirdi ki, " əgər filmin rejissoru daha tez anlaşa bilən "bəsit dil"ə üstünlük verdiyi zaman bir növ seyrçiyə yaltaqlanmaqda, ona göz vurmaqda, kefini açıb nəşələndirməyə çalışmaqda, güldürmək üçün qıdıqlamaqda, daha kəskin desək rüşvət verməkdədir. Bəli, məhz rüşvət verməkdədir. Çünki belə yanaşma sənətlə uzaqdan yaxından əlaqəsinin olması mümkün deyil..."

Əgər sənətsal düşüncə insanların vicdanına toxunmayan spekulyativ bir çərçivədə ortaya çıxırsa o zaman bunun boş qalacağına və heç bir işə yaramayacağından şübhəniz olmasın deyirdi rejissor.

Sənətsal düşüncənin sənətçinin mənəvi və əxlaqi sahədəki davranışlarına dayanmağı məsləhət görür. Eynən bir kitab kimi... Kitab hər şeydən öncə sənətsal bir yazı olmasının yanında həm də əxlaqi bir yazıdır. Yəni təsəvvür edin bir tərəfdə ədəbiyyatçılar var, digər tərəfdə isə yazıçılar. Və bunların ikisi də eyni şey olduğu söylənilir. Bu fikri söyləyən rejissor bunu belə açıqlayır: "Mənə elə gəlir ki, sənətsal düşüncənin eynən bir davranış kimi insanın içində yaranması gərəkdir. Belə bir şey təsəvvür edin. Deyək ki, həyatınızı yaşayırsız və anidən bundan sonra necə yaşamalıyam, yoxsa belə deyərək birdən birə ikiləməyə düşürsünüz. Sonunda anlayırsınız ki, əgər həyata qarşı bəlli bir hərəkət edərək yaşayırsızsa o zaman bir çox şeyi də risqə atmaq məcburiyyətində qalacaqsınız. Amma siz də mənəvi anlamda doğru yolda olmanın iç hüzurunu yaşayırsız deməktir. Bunun əksinə heç bir şeyimizi risqə atmanın gərəkmədiyini bir yol seçtiniz deyək. Bu vəziyyətdə sənətsal düşüncənizi mənəvi olaraq gerçəkləşdirəcək yoldan çox uzaqlaşdığınızı, dolanbaclı və öz özünü qoruma yoluna girdiyinizi çox net anlayırsınız.

İnsanın düşüncələrini gerçəkləşdirməsi ilə öz özünü qoruması bir birindən fərqli şeylərdir. Öz özünü qoruma iki ucu olan bir dəyənəkdir və bu bir dönəm kəsb etməz... və beləcə hər mövzuda risqə girdiyinizi çox açıq şəkildə anlayırsınız, amma buna görə özü özünüzə hörmətinizi itirirsiniz.

***Tarkovski də film aktyorlarının rollarını teatr aktyorları kimi oynamasını qəti şəkildə inkar edirdi. Onun fikrincə aktyor filmə çəkilərkən senarini gündəlik bilməlidi. Yəni sabahın belə çəkilişində nə söyləyəcəyini bilməməlidi. Filmin sonunu necə bitəcəyini bilməsi isə qəti şəkildə olmazdı. Hər şey həyatdakı kimi olmalıdı. Məsəlçün biz sabah nə olacağını , nə danışacağımızı bilmədiyimiz kimi... Əks halda o, özünü filmin sonundakı hadisəyə kökləyəcək. Bunun qarşısını almaq üçünsə tək bir yol var: " Birincisi, aktyorun təklif aldığı filmin rejissoruna inanması, ikincisi isə gördüyü işi sevərək və bəyənərək etməsidir."***

***Tarkovski aktyorlarla işləmə üsulunu anladarkən Berqmandan da nümunələr gətirirdi.***

Berqman aktyorlarına özlərinin içində olduğu vəziyyətlərin aşmasına heç bir şəkildə razı olmur və qəti şəkildə icazə vermirdi. Aktyorların düşdüyü vəziyyətdən və bu vəziyyətdəki xarakterlərin olması gərəkdiyindən daha artıq bir obraz yaratmağa haqqları yoxdur, çünki aktyorların canlandırdıqları xarakterlərin gerəktiyindən artıq bir aktyorluq sergiləmələri halında , o zaman filmdəki xarakterləri deyil, o xarakterlərə və ya filmin ana fikrinə qarşı özlərini oynayacaqlar. Bu isə yöntəmsiz və kobud oyunçuluqdan başqa bir şey deyil...

***Rene Clairin kino aləmində bilinən məşhur bir məntiqi var. Bir gün ona "Aktyorla necə işləyirsiz?" deyə bir sual verirlər. O isə cavabında 'Bağışlayın, mən aktyorla işləyirəm? Mən aktyorla işləmirəm, mən sadəcə onlara pul ödəyirəm." Belə bir cavab bir rejissorun aktyora nə qədər güvəndiyinin isbatıdır.***

Bu məqamda Tarkovski yenə bir örnək göstərir qeydlərində: "Gəlin düşünək, M.Antonioninin "Macəra" filminə baxaq görək Antonioni bu filmdə aktyorlarla necə işləyib? Bilmirəm, daha doğrusu bu suala cavab verməkdə çətinlik çəkirəm. Məncə aktyorlarla heç işləməyib. İndi aktyorların filmdə yaşadıqlarını, amma yenə də bunun bir işə yaramadığını söyləyəcəksiniz. "Yaşayırlar" düşüncəsi burada kəsinliklə keçərli deyil. Necə yaşayırlar? Mən bunun nə olduğunu belə bilmirəm. Yaxşı aktyorlar bəs Fellinin filmlərində necə işləyirlər? Necə işləyirlər, kim və necə? Orson Vellesin "Yurtdaş Kane" filmində aktyorlar necə işləyirlər? Bəs Berqmanın filmlərində? Beləcə bu anlamda biz sadəcə fəlakətdən söz edə bilərik, çünki sözünü etdiyimiz rejissorların filmlərində aktyorlar işləmir. Gündəlik həyatlarını göstərir. Və aktyor ifrat dərəcədə duyğularını göstərmir. Bəli kino aləmində də aktyorun istedadı burada gizlənir. O heç bir şəkildə oynamaz. Çünki oynamağa başladığı an hər şey son olar. Bu anlamda kino sənətindəki ustalıqlara baxmayaraq Amerikalı aktyorlar bu cür oynayırlar. Buna görə də Amerikalıların Stanislavskini sevmələri heç də təsadüfi deyil.

***Tarkovski, aktyorun kino sənətinə xas olan material olmadığını və aktyoru teatr ənənələrinə görə kinoda istifadə etməyə başladığımız zaman , kino duyğusunun anında pozulmasını da xüsusilə vurğulayır. Ümumiyyətlə , kinoda qanun olaraq bütün səhvlər həddən artıq şişirtməylə bağlıdır.***

***Kino sənəti mütləq şəkildə naturalist olmalıdır. Doğrudur, gerçəkliyin fotosunu çəkmək mümkün deyil, gerçəkliyin sadəcə görüntüsünü yaratmaq olar.***

Rejissor dərslərində tələbələrinə aktyorlarla işləyərkən onlara təzyiq göstərməməsini tövsiyə edirdi. Çünki xırda bir təzyiq aktyorun oyununda özünü əks etdirəcək, bu da seyrçilərin gözündən yayınmayacaqdır. Aktyor hər zaman özünü azad hiss etməlidir deyən Tarkovskinin sənət aləmində bitməyən və çox dəyərli tövsiyələri var.

Mən bu məqaləmdə bu təcrübələrin yalnız qısa bir hissəsini yazdım. Tarkovski sənəti həqiqətən də kino sahəsində gənclərə bir yol açan, işıq olan bir sənətdir. Bu səbəbdən də kino sahəsində ilk addımlarını atan bəzi gənc rejissorlar Tarkovskinin fəlsəfəsiylə yola çıxaraq özlərini inkişaf etməyə başlayırlar. Tarkovski yaradıcılığının heyranı olan məşhur Türk rejissoru olan Nuru Bilgə Ceylanı buna misal göstərmək olar.

***Son dövrlərdə Azərbaycan kino sahəsində təəssüf ki, gənclər daha çox bayağı, bəsit dildən istifadə edərək izləyici sayını artırmaqla məşğuldur. Sənətdən çox gəlir əldə etməyi hədəfə alan bəzi rejissorlarımız filmlərində təhqirdən belə çəkinmirlər. Amma düşünürəm ki, yaxşı sənət, yaxşı film qızıl kimi hər zaman dəyərlidir.***

***Ümid edirəm ki, bu məqaləm gənc rejissorların bir daha düşünməsinə səbəb olacaq. Və biz sənət adamları, seyrcilər də dünya kinosundan filmlərə baxıb 'Niyə o əjdahadan bizdə yoxdur" deməyəcəyik.***








Oxu, oxut, abunə ol!